Azərbaycan Respublikası

Siyəzən Rayon İcra Hakimiyyəti başçısının

# S Ə R Ə N C A M I

№ 32 16 aprel 2014-cü il

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünün Siyəzən rayonunda keçirilməsi haqqında**

Bu ilin may ayının 10-da xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümüdür. XX əsrdə Azərbaycan tarixinin otuz ildən artıq dövrü Heydər Əliyev şəxsiyyəti, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Azərbaycanda müstəqil dövlət quruculuğunun əbədiliyinin təmin edilməsində Ulu öndərin müstəsna xidmətləri olmuşdur. Heydər Əliyev haqlı olaraq müasir Azərbaycan Respublikasının memarı adlandırılır.

Ulu öndər Heydər Əliyev bizim üçün böyük bir irs qoymuşdur. Onun dövlət idarəçiliyi, iqtisadi siyasət, milli-mənəvi dəyərlərimizin qorunması, xarici siyasət və digər sahələrdə müəyyən etdiyi siyasi xətt müstəqil dövlətimizin inkişafı və gücləndirilməsi üçün çox mühüm əhəmiyyət kəsb edir. Bu gün ölkəmizin daxili və xarici siyasəti Ulu öndərimizin müəyyən etdiyi prinsiplərə söykənir. Məhz bu siyasətin cənab Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı regionun lider dövlətinə çevirmişdir.

Ulu öndərin memarı və qurucusu olduğu Azərbaycan Respublikası bu gün sürətlə inkişaf edir. Ulu öndər Heydər Əliyevin doğum günü respublikamızın hər yerində olduğu kimi Siyəzən rayonunda da geniş qeyd edilir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünün yüksək səviyyədə keçirilməsi məqsədilə **qərara alıram**:

1. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü Siyəzən rayonunda geniş qeyd edilsin.

2. Siyəzən rayonunda xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünün keçirilməsi ilə əlaqədar Tədbirlər planı təsdiq edilsin (Tədbirlər planı əlavə olunur).

3. Siyəzən rayonunun bütün idarə, müəssisə və təşkilatlarına tapşırılsın ki, Tədbirlər planında nəzərdə tutulmuş işlərin vaxtında və yüksək səviyyədə həyata keçirilməsini təmin etsinlər.

4. Sərəncamın icrasına nəzarət Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Təhminə Eyvazovaya tapşırılsın.

**Siyəzən Rayon**
**İcra Hakimiyyətinin**
**başçısı** **Arif Qasımov**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**
*16 aprel* **2014-cü il tarixli** *32* **nömrəli**
**sərəncamı ilə təsdiq edilmişdir**

**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünün Siyəzən rayonunda keçirilməsinə dair**

**TƏDBİRLƏR PLANI**

| № | Tədbirin adı | Məsul təşkilatlar | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|---|
| 1. | Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü ilə əlaqədar rayonun bütün idarə, müəssisə və təşkilatlarında elmi konfransların, müsabiqələrin, sərgilərin və idman yarışlarının keçirilməsi | Rayon İcra Hakimiyyəti,<br>Təhsil Şöbəsi,<br>Mədəniyyət və Turizm Şöbəsi,<br>Gənclər və İdman İdarəsi | Təhminə Eyvazova<br>Xaqani Bəşirov<br>Rəfail Hacıyev<br>Nigar Qəniyeva<br>Nadir Məmmədov | aprel- may 2014-cü il |
| 2. | “Heydər Əliyev müasir Azərbaycan Respublikasının memarı və qurucusudur” mövzusunda elmi-praktik konfrasın keçirilməsi | Rayon İcra Hakimiyyəti,<br>YAP rayon təşkilatı | Təhminə Eyvazova<br>Etibar Heydərov | aprel-may 2014-cü il |
| 3. | Rayonun bütün ümumtəhsil məktəblərində Heydər Əliyev dərslərinin keçirilməsi, Heydər Əliyev irsinə həsr olunmuş konfrans və dəyirmi masaların təşkili, şagirdlərin Heydər Əliyev Mərkəzində təşkil edilmiş sərgilərlə tanışlığı | Rayon İcra Hakimiyyəti,<br>Təhsil Şöbəsi,<br>Heydər Əliyev Mərkəzi | Təhminə Eyvazova<br>Rəfail Hacıyev<br>Ramilə Seyidova | aprel-may 2014-cü il |
| 4. | Rayonun idarə, müəssisə, təşkilatlarında və Siyəzən Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəliklərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş tədbirlərin keçirilməsi | Rayon İcra Hakimiyyəti,<br>Siyəzən Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri,<br>Rayonun idarə, müəssiə və təşkilatları | Zəfər Əliyev<br>Etibar Heydərov<br>Təhminə Eyvazova<br>Xaqani Bəşirov | aprel-may 2014-cü il |
| 5. | Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə ümumrayon tədbirinin keçirilməsi | Rayon İcra Hakimiyyəti,<br>Mədəniyyət və Turizm Şöbəsi | Təhminə Eyvazova<br>Nigar Qəniyeva | 10 may 2014-cü il |
| 6. | Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunan tədbirlərin rayonun “Çıraq” qəzetində və kütləvi informasiya vasitələrində geniş işıqlandırılması | Rayon İcra Hakimiyyəti,<br>“Çıraq” qəzeti redaksiyası | Təhminə Eyvazova<br>İlyas İlyasov | aprel-may 2014-cü il |